AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 39 (1499), 7 - 13 dekabr 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısı, birinci xanım və qızları kompleksin ərazisini gəzdilər.

Məlumat verildi ki, yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra obyektin bazasında Quba İstirahət, İdman, Təlim və Tədris Kompleksi yaradılıb. Layihənin özünəməxsusluğu ondan ibarətdir ki, burada istirahət, idman, təlim və tədris bir məkanda cəmləşib. Həmçinin bu cür komplekslərin yaradılması regionlarda əmək bazarına yeni iştirakçıların daxil olmasına ciddi təkan verir.

Quba universal kompleksində 200-250 işçinin çalışacağı nəzərdə tutulur. Onların mütləq əksəriyyətini yerli sakinlər təşkil edəcək.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva kompleksdəki 340 tamaşaçı yerlik üzgüçülük hovuzu, 6600 tamaşaçı yerlik futbol stadionu, Şahmat Mərkəzi və otellə tanış oldular.

Bildirildi ki, kompleksin təlim və tədris hissəsində maliyyə sektoru prioritet olmaqla, bank, sığorta və kapital bazarları iştirakçıları üçün məşğələlər keçiriləcək. İlkin mərhələdə isə personalın xidmət səviyyəsinin yüksəldilməsi üçün proqramların təşkili nəzərdə tutulur.

Şahmat Mərkəzində idmanın bu növü ilə məşğul olmaq istəyənlər üçün hər cür şərait yaradılıb. Çünki şahmat dövlətimizin xüsusi diqqətində olan idman sahələrindəndir.

## Milli Olimpiya Komitəsində görüş keçirilib

Dekabrın 2-də Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında noyabrın 16-22-də Dubayda təşkil olunmuş karate üzrə dünya çempionatında uğurla çıxış etmiş milli komandamızın üzvləri ilə görüş keçirilib. Görüşdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, MOK baş katibinin müavini Azər Əliyev, Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov, kişi kumiteçilərdən ibarət yığma komandanın baş məşqçisi Qurban Tağıyev, qadınlardan ibarət kumite komandanın baş məşqçisi Denis Morozov, federasiyanın baş hakimi Cahangir Babayev, komandanın üzvləri iştirak ediblər.



*(ardı 2-ci səhifədə)*

## Fərid Qayıbov dünya çempionatında uğurla çıxış etmiş karateçilərlə görüşüb

Gənclər və idman naziri Fərid Qayıbov bu yaxınlarda dünya çempionatında uğurla çıxış etmiş Azərbaycan karateçiləri ilə görüşüb.

Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, Azərbaycan Karate Federasiyasının prezidenti Yaşar Bəşirov noyabrın 16-22-də Dubayda keçirilmiş dünya çempionatına hazırlıq və idmançılarımızın nəticələri haqda, eləcə də idmançılarımızın son zamanlarda iştirak etdikləri digər yarışlardakı uğurları barədə nazirə məlumat verib.

F.Qayıbov karateçilərimizin ötən ay dünya çempionatındakı çıxışlarını maraqla izlədiyini və əldə etdikləri nəticənin sevindirici olduğunu vurğulayıb. Nazir Y.Bəşirovu Beynəlxalq Şotokan Federasiyasının prezidenti seçilməsi münasibətilə təbrik edib, federasiyanın fəaliyyətinə və Azərbaycan karateçilərinə uğurlar arzulayıb.

Görüşdə kişilərdən ibarət kumite yığma komandanın baş məşqçisi Qurban Tağıyev, qadınlardan ibarət kumite yığma komandanın baş məşqçisi Denis Morozov, federasiyanın baş hakimi Cahangir Babayev, para-karate üzrə yığma komandanın baş məşqçisi Rənad Əliyev də iştirak ediblər.

Xatırladaq ki, idmançılarımızdan İrina Zaretska (68 kq) dünya çempionu olub, Asiman Qurbanlı (+84 kq) isə bürünc medal qazanıblar. Bundan başqa, Rafael Ağayev, Asiman Qurbanlı, Tural Ağalarzadə, Turqut Həsənov, Pənah Abdullayev, Tural Ələkbərli, Rafiz Həsənovdan ibarət komandamız, eləcə də para-karateçilərimizdən Emiliya Mitilinova və Eldar Əhmədov dünya üçüncüsü olublar.

## *Qış Universiadası ləğv edildi*

Dekabrın 11-dən 21-dək İsveçrənin Lütsern şəhərində keçirilməsi planlaşdırılan Qış Universiadası ləğv edilib. Buna koronavirusun yeni ştamı "Omikron"un ortaya çıxması səbəb olub.

Qeyd edək ki, növbəti Qış Universiadası 2023-cü ildə ABŞ-ın Leyk-Plesid şəhərində təşkil olunacaq. Həmin il, həmçinin Yekaterinburqda Yay Universiadası keçiriləcək.

## *Azərbaycan Pauerliftinq Federasiyasının təlim-məşq bazasının açılışı olub*

Dekabrın 6-da Azərbaycan Pauerliftinq Federasiyasının təlim-məşq bazasının açılışı olub. Açılışda gənclər və idman naziri Fərid Qayıbov da iştirak edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan mərasimdə əvvəl federasiyanın fəaliyyəti barədə təqdimat olub.

Nazir F.Qayıbov tədbirdə çıxış edərək şəhid idmançı Muxtar Qasımlının atası Əli Qasımlıya xatirə plaketi təqdim edib. Açılışın qonağı olan qazilərə isə xatirə hədiyyələri verilib.

Yeni bazada yaradılmış şəraitlə tanış olan nazir yığma komandanın üzvləri ilə görüşüb və məşq proseslərini izləyib.

Federasiya prezidenti Ələddin Əliyev nazirə qarşıdakı yarış və tədbirlər barədə məlumat verib.

Tədbirdə nazir müavini Mariana Vasileva, idman şöbəsinin müdiri Fərid Mansurov, şəhid ailələrinin üzvləri, Vətən müharibəsi qaziləri, federasiya rəsmiləri və yığma komandanın üzvləri iştirak ediblər.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*

**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## Anons

""Olimpiya dünyası" qəzetindən etibarlı mənbə kimi istifadə edirəm" Səh. 3

AMADA son 5 ilin statistikasını açıqladı Səh. 4

"Buzun kraliçası"- Sonya Heni Səh. 5

Canni De Byazi ilə müqavilənin müddəti uzadıldı Səh. 7

# Milli Olimpiya Komitəsində görüş keçirilib

*(əvvəli 1-ci səhifədə)*

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycan karateçilərinin Tokio-2020 Yay Olimpiya Oyunlarından sonra dünya çempionatında da uğurla çıxış etdiklərini və qazandıqları nəticələrin sevindirici olduğunu vurğulayıb. Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Başirovu Beynəlxalq Şotokan Federasiyasının prezidenti seçilməsi münasibətilə təbrik edən Ç.Hüseynzadə federasiyanın fəaliyyətinə və Azərbaycan karateçilərinə uğurlar arzulayıb.

Federasiya prezidenti Yaşar Başirov Tokio Yay Olimpiya Oyunları və dünya çempionatında komandamızın uğurlu çıxışı haqqında məlumat verib. Bildirib ki, karateçilərimizin Olimpiadada qazandıqları iki gümüş medal ölkəmizdə idmanın bu növünün sürətli inkişafının nəticəsidir. O, noyabrın 16-22-də Dubayda keçirilmiş dünya çempionatına hazırlıq prosesindən danışıb, idmançılarımızın mundialda qazandıqları uğurların karateçilərimizin dünyanın ən güclüləri sırasında yer almasının göstəricisi olduğunu vurğulayıb.

Azərbaycan milli karate komandasının lideri Rafael Ağayev ağır zədədən sağaldıqdan sonra dünya çempionatında mübarizə aparmağın çətin olduğunu bildirib: "Şəxsi yarışlarda işlər qaydasında idi. ABŞ təmsilçisi Skott Tomas ilə 9 görüş keçirmişəm. Ancaq ilk dəfə ona uduzdum. Həmin qarşılaşmada 0:3 hesabı ilə geridə idim və 3 xal alaraq hesabı bərabərləşdirdim. Lakin hakimlərin rəyi ilə ABŞ idmançısı qalib elan edildi. Həqiqətən dincəlmək üçün bir az zaman olsaydı, altıqat dünya çempionu adını qazana bilərdim. Amma irəli baxmaq lazımdır. Məşqlərə davam etməliyik. İnanıram ki, yenidən bayrağımızı dalğalandıracağıq".

Dünya çempionatında qızıl medal qazanan karateçi İrina Zaretska ölkəmizdə idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirib. O, göstərilən etimadı bundan sonra da doğruldaraq daha böyük uğurlar qazanmaq üçün yarışlara ciddi hazırlaşacaqlarını bildirib.



Azərbaycanın daha bir güləşçisi Dünya Güləş Birliyindən (UWW) pul mükafatı alıb. 50 kiloqram çəki dərəcəsində çıxış edən qadın güləşçimiz Mariya Stadnikə 3 min ABŞ dolları verilib. İkiqat dünya və 8 qat Avropa çempionu, London-2012 və Rio-2016-nın gümüş, Pekin-2008 və Tokio-2020 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı 60 xalla dünya reytinqində

# Mariya Stadnik Dünya Güləş Birliyi tərəfindən mükafatlandırıldı

üçüncü pillədə qərarlaşıb və pul mükafatına layiq görülüb. Qeyd edək ki, daha əvvəl Azərbaycanın sərbəst güləşçimiz Osman Nurməhəmmədov (92 kq) 3 min, yunan-Roma güləşçisi Rafiq Hüseynov (82 kq) isə 10 min dollar mükafat əldə ediblər.




# Üzgüçülük Federasiyasının İcraiyyə Komitəsinin yığıncağı keçirilib

Azərbaycan Üzgüçülük Federasiyasının İcraiyyə Komitəsinin yığıncağı keçirilib. Tədbirdə federasiyanın baş katibi, icraçı direktoru və mətbuat katibinin, o cümlədən üzgüçülük və su polosu üzrə milli komandaların baş məşqçilərinin müəyyənləşməsi və cari məsələlər müzakirə olunub.

Federasiyanın prezidenti Xanlar Fətiyev baş katib vəzifəsinə bacarığı və çalışqanlığı ilə seçilən, əvvəlki illərdə federasiyanın fəaliyyətinə töhfə vermiş Fərid Bənənyarlının namizədliyini irəli sürüb və təklif İcraiyyə Komitəsinin üzvləri tərəfindən yekdilliklə dəstəklənib. Komitə üzvləri federasiyanın texniki direktoru Kamran Hüseynovun, mətbuat katibi Məqsəd Rəhimovun, milli komandanın baş məşqçisi Rəşad Əbdürrəhmanovun, su polosu üzrə komandanın baş məşqçisi Azər Babayevin də namizədliklərini təsdiqləyiblər.

Yığıncağın ikinci hissəsində komitə üzvləri federasiyanın fəaliyyətinin səmərəliliyinin artırılması üçün tədbirlər planını müzakirə ediblər. İcraiyyə Komitəsi görülən işlərin müzakirəsi və perspektivləri müəyyənləşdirmək məqsədilə rübdə bir dəfə geniş tərkibdə görüşlər keçirməyi qərara alıb.

Yeni vəzifəyə təyin olunanlar göstərilən etimada görə minnətdarlıqlarını bildirib, var gücləri ilə çalışacaqlarına söz veriblər.

Sonda yaxın vaxtlarda keçiriləcək yarışlar, komandaların hazırlıq prosesləri və digər texniki məsələlər müzakirə olunub.

# İki karateçimiz Dünya Oyunlarına vəsiqə qazandı

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində böyüklərin 25-ci dünya çempionatının mükafatçıları İrina Zaretska (68 kq) və Asiman Qurbanlı (+84 kq) XI Dünya Oyunlarına vəsiqə qazanıblar. Azərbaycan Milli Karate Federasiyasından verilən məlumata görə, daha bir idmançımız Rafael Ağayevin (75 kq) də Dünya Oyunlarına vəsiqə qazanmaq ehtimalı yüksəkdir. Onun bu mötəbər yarışda iştirakı 2022-ci ildə keçiriləcək Karate1 seriyasından nüfuzlu turnirlərdə əldə edəcəyi reytinqdən və Avropa çempionatının nəticəsindən asılı olacaq.

XI Dünya Oyunlarının karate yarışları 10 çəki dərəcəsi və kata çıxışları üzrə keçiriləcək. On iki kateqoriyanın hər birində 8 karateçi mübarizə aparacaq. Hər kateqoriyada ilk "üçlük" dünya çempionatının mükafatçılarından ibarətdir. Digər 3 yer dünya reytinqində ilk pillələri tutanlara, qitə çempionlarına, daha bir




lisenziya isə təşkilatçı ölkənin təmsilçisinə veriləcək. Oyunlar 2022-ci il iyulun 7-dən 17-dək ABŞ-ın Birmingem şəhərində keçiriləcək. Bu nüfuzlu yarışda 100-dən artıq ölkədən 3 mindən çox idmançının çıxışı gözlənilir. Oyunların karate yarışları iyulun 8-9-da keçiriləcək .

Xatırladaq ki, noyabrın 16-21-də Dubayda keçirilmiş böyüklərin 25-ci dünya çempionatında İ.Zaretska ikiqat dünya çempionu titulunu qazanıb. Digər karateçimiz A.Qurbanlı isə bürünc medalın (eyni zamanda komanda yarışlarında) sahibi olub.

# Yığma komandamıza yeni baş məşqçi təyin edildi

Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVIF) prezidenti Mədət Quliyevin əmri ilə şose velosipedi üzrə yığma komandaya yeni baş məşqçi təyin edilib.

AzVIF-dən verilən məlumata görə, bundan sonra milliyə Əməkdar məşqçi Asif Həsənov rəhbərlik edəcək.

Bunadək "Neftçi" İdman Klubu" İctimai Birliyinin velosiped bölməsinin məşqçisi olan A.Həsənovu məşqçilər korpusuna AzVİF-in baş katibi Fərhad Əliyev təqdim edib və federasiya prezidentinin məşqçilər korpusu qarşısında qoyduğu əsas hədəfləri onların diqqətinə çatdırıb.

Göstərilən yüksək etimada görə, federasiya rəhbərliyinə təşəkkürünü bildirən A.Həsənov qarşıya qoyulan məqsədlərə çatmaq üçün məşqçilər korpusu ilə birgə bütün qüvvə və bacarığını səfərbər edəcəyini deyib.

# Azərbaycan çempionatına bu gün start veriləcək

Dekabrın 7-dən 9-dək sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı keçiriləcək. Milli komandalara seçim xarakteri daşıyan ölkə birinciliyi Bakı İdman Sarayında təşkil olunacaq. Azərbaycan Güləş Federasiyasının Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edəcəyi yarış beynəlxalq və milli dərəcəli hakimlər tərəfindən idarə olunacaq.



Çempionatın proqramına əsasən, bu gün yunan-Roma güləşi üzrə 55, 60, 63, 67, 72, 77 və 82 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşəcək. Bu gün saat 16:00-da yarışın təntənəli açılış mərasimi olacaq. Növbəti gün klassik güləşdə 87, 97 və 130, sərbəst güləşdə isə 57, 61, 65 və 70 kiloqram çəki dərəcələrində medalçılar müəyyənləşəcək. Yarışın sonuncu günündə isə 74, 79, 86, 92, 97 və 125 kiloqram çəki dərəcələrində ölkənin ən güclü sərbəst güləşçiləri bəlli olacaq.

Q e y d edək ki, ölkədə davam edən karantin rejimi ilə əlaqədar olaraq Azərbaycan çempionatı azarkeşsiz keçiriləcək.

# Milli komandalarımız Avropa Liqası yarışlarında mübarizə aparacaqlar

Qadın və kişi voleybolçulardan ibarət Azərbaycan milli komandaları Avropa Liqası yarışlarında mübarizə aparacaqlar. Bu barədə Avropa Voleybol Konfederasiyası (CEV) məlumat yayıb. Qadınlardan ibarət millimiz Qızıl Avropa Liqasında, kişilərdən ibarət komandamız isə Gümüş Avropa Liqasında gücünü yoxlayacaq.

Yarışların 2022-ci ilin may-iyun aylarında keçiriləcəyi planlaşdırılır.

# AVF-nin nümayəndəsi beynəlxalq oyuna təyinat aldı

Avropa Voleybol Konfederasiyası (CEV) tərəfindən Azərbaycan Voleybol Federasiyası (AFV) Regional İnkişaf Mərkəzinin rəhbəri Nərgiz İsmayılovaya növbəti dəfə etimad göstərilib. N.İsmayılova dekabrın 8-də Serbiyanın paytaxtı Belqradda qadınlar arasında keçiriləcək Çempionlar Liqasının E qrupu çərçivəsində yerli "ZOK UB" və "Çemik" (Polşa) klublarının qarşılaşmasında supervayzer kimi hakimlərin işinə qiymət verəcək.



Qeyd edək ki, görüşün hakimləri rusiyalı Evgeny Makşanov və bolqarıstanlı Konstantin Yovçev olacaqlar.

*“Olimpiya dünyası”- 20*

# ““Olimpiya dünyası” qəzetindən etibarlı mənbə kimi istifadə edirəm”



***Dilqəm Quliyev,*** 
***pedaqogika üzrə elmlər doktoru, professor***

Müstəqillik əldə edildikdən sonra hər bir sahədə olduğu kimi, idmanda da böyük yüksəliş dövrü başladı. Beynəlxalq miqyaslı yarışlarda əldə olunan nailiyyətlər günü-gündən artmağa başladı. Dünya, Avropa çempionatlarında və Olimpiya oyunlarında əldə olunan nailiyyətlər xalqımızı sevindirdi. Əldə olunan nailiyyətlərin təbliğində KİV nümayəndələrinin rolunu xüsusi qeyd etmək olar.




Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, saytlar fəaliyyət göstərir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib. Bütün dünyada gedən qloballaşma prosesi mətbuatdan da yan ötməyib.

İdman qəzetləri arasında özünəməxsus dəsti-xətti olan “Olimpiya dünyası” bu işdə böyük pay sahibidir. Bu qəzet 20 illik fəaliyyəti dövründə idman və Olimpiya hərəkatı ilə bağlı Azərbaycan oxucusuna səhih məlumatlar çatdırıb. “Olimpiya dünyası” öz səmərəli fəaliyyəti ilə ölkəmizdə idmanın və Olimpiya hərəkatının təbliğinə xidmət edir. Şübhəsiz ki, bu işdə peşəkar kollektivin xüsusi əməyi var. Milli Olimpiya Komitəsinin təsis etdiyi bu qəzet daim diqqət mərkəzindədir.

## “Qəzetin kollektivi öz işini günün tələbləri səviyyəsində qurmağı bacarır”

“Olimpiya dünyası” qəzeti 2001-ci il noyabrın ayının 27-də nəşrə başlayıb. İlk gündən ölkəmizdə idmanın və Olimpiya hərəkatının inkişafını peşəkarlıqla təbliğ edib. Qəzet yarandığı gündən etibarən idmançılarımızın əldə etdiyi uğurların və nailiyyətlərin ictimaiyyətə çatdırılmasında uğurla fəaliyyət göstərir. Ölkənin federasiya, klub və cəmiyyətləri ilə sıx əlaqə yaradan qəzetin kollektivi öz işini günün tələbləri səviyyəsində qurmağı bacarır. Bu mətbuat orqanını digər idman nəşrlərindən fərqləndirən başlıca cəhət isə Olimpiya və qeyri-Olimpiya növlərinə fərq qoymadan bütün idman növlərini bərabər səviyyədə işıqlandırmasıdır.



“Olimpiya dünyası” qəzeti 20 il ərzində idmanın təbliği ilə yanaşı, müxtəlif tədbirlərin keçirilməsinə də xüsusi önəm verib. Müxtəlif layihələrin həyata keçirilməsinə nail olan “Olimpiya dünyası” qəzeti bir sıra ölkədaxili və beynəlxalq miqyaslı yarışların, eləcə də mədəniyyət tədbirlərinin təşkilatçısı olub.

Ölkəmizdə idman sahəsində baş verən yenilikləri, böyük idmanda təmsilçilərimizin əldə etdikləri uğurları, bu sahənin inkişaf perspektivlərini daim diqqətdə saxlayan “Olimpiya dünyası” qəzeti bədən tərbiyəsi və idmanın kütləvi xarakter alması üçün təbliğat və təşviqat işlərini uğurla davam etdirir. Belə ki, qəzetimiz insanların sağlamlıqlarının qorunmasında, onların asudə vaxtlarının təşkilində önəmli rol oynayan bədən tərbiyəsi və idmanın cəzaçəkmə müəssisələrində də təbliğinə xüsusi diqqət yetirib.

Milli Olimpiya Komitəsi ilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında “Cəzaçəkmə müəssisələrində məhkumların asudə vaxtlarının səmərəli keçirilməsi, idmana maraqlarının artırılması və vətənpərvərlik ruhunda tərbiyəsi məqsədilə birgə görüləcək işlərə dair” müqavilə imzalanıb. Bu müqavilədə əksini tapan tədbirlər planına əsasən ayrı-ayrı cəzaçəkmə müəssisələrində görüşlər təşkil edilib. Belə tədbirlərdə tanınmış idmançılarımız və idman rəsmiləri məhbuslarla görüşərək, onlara mənəvi dəstək veriblər.



## “Nüfuz və keyfiyyətə görə” mükafatlanan idman nəşri

“Olimpiya dünyası” qəzeti həmişə tələbkar oxucuların zövqünü oxşamağa, onları maraqlandıran, narahat edən məsələlərdən söz açmağa, bir sözlə, oxucuların inandığı, etibar etdiyi, hər sayını səbirsizliklə gözlədiyi mətbuat orqanı kimi qazanılan etimadı qoruyub saxlamağa çalışır.

“Olimpiya dünyası”nın fəaliyyəti müvafiq təşkilat və qurumlar tərəfindən daim yüksək qiymətləndirilib. “Olimpiya dünyası” qəzeti ötən illər ərzində bir sıra mükafatlara layiq görülüb. O, Azərbaycan İdman Jurnalistləri Assosiasiyası (AİJA) tərəfindən 2002, 2003, 2004, 2005, 2006, 2007, 2008, 2009 və 2010, 2011, 2013-cü illərdə qəzet və jurnallar arasında “İlin ən yaxşı idman nəşri” nominasiyasının qalibi olub.

Beynəlxalq idman təşkilatlarının da diqqət mərkəzində olan “Olimpiya dünyası” İspaniyanın nüfuzlu “Aktualidad” jurnalının təsis etdiyi “Nüfuz və keyfiyyətə görə” adlı beynəlxalq mükafata layiq görülüb. İdman və Olimpiya Hərəkatının təbliği sahəsindəki fəaliyyətinə görə qəzet beynəlxalq idman federasiyaları tərəfindən xüsusi diplomlarla təltif edilib.

“Olimpiya dünyası” qəzetinin ilk abunəçilərindən biriyəm. Etiraf edim ki, yazdığım kitab və monoqrafiyalarda “Olimpiya dünyası” qəzetinin materiallarından etibarlı mənbə kimi istifadə edirəm. Demək istədiyim odur ki, bu qəzet 20 il ərzində oxucuların sevimli idman mətbuatı olub. Qəzetiniz öz səhifələrində günün mühüm idman hadisələrini, yenilikləri, nəinki Azərbaycanda, hətta ölkəmizin hüdudlarından kənarda keçirilən yarışlar barədə oxuculara məlumat çatdırır. 20 illik fəaliyyəti dövründə bu nəşr geniş oxucu kütləsi toplayıb.

“Olimpiya dünyası” qəzeti müxtəlif mövzuları əhatə edir. Rəngarəng rubrikalar oxucular tərəfindən maraqla qarşılanır. “Olimpiya dünyası” qəzetində mənim müxtəlif publisist mövzularda 100-ə yaxın məqaləm çap olunub. Qəzet Azərbaycanın müstəqilliyi dövründə keçirilən Olimpiya oyunlarına hazırlıq, idmançıların bu mötəbər yarışlarda iştirakından geniş məlumatlar dərc edib. “Olimpiya dünyası” qəzetinin “Qarabağ Azərbaycandır!” rubrikası altında xüsusi buraxılışları diqqətə layiqdir. İkinci Qarabağ müharibəsində ordu sıralarına könüllü qoşulan və hərbçi kimi vuruşan Azərbaycan idmançılarının ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdəki qəhrəmanlıqları geniş şəkildə işıqlandırılıb. “Olimpiya dünyası” qəzetinin səhifələrində Afina-2004, Pekin-2008, London-2012, Rio-de-Janeyro-2016, Tokio-2020 Yay və Qış Olimpiya oyunlarının hər birinin gedişini geniş işıqlandırmış, Azərbaycan idmanının ən yaxşı nümayəndələrinin oyunlarda çıxışları, qələbə və rekordları haqqında oxucularına ətraflı məlumat vermiş, Yeniyetmələrin Yay Olimpiya oyunları, Avropa Gənclər Yay Olimpiya festivalları, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1, 42-ci Ümumdünya Şahmat Olimpiadası və digər mötəbər yarışlar və bir çox mötəbər beynəlxalq tədbirlər yüksək peşəkarlıqla işıqlandırılır. Ölkəmizdə və dünyada baş verən idman hadisələrini oxuculara vaxtında çatdırır. Məhz buna görədir ki, bu qəzet ölkənin idman mətbuatında aparıcı yerlərdən birini tutur. 20 il əvvəl nəşrə başlayan qəzet əvvəlki nüfuzunu bu gün də saxlayıb. Əminik ki, müasir Azərbaycanın idman mətbuatında öz dəst-xətti ilə seçilən “Olimpiya dünyası” qəzeti bundan sonra da peşəkar, mükəmməl və obyektiv materialları ilə media məkanında mövqeyini və nüfuzunu daha da möhkəmləndirəcəkdir. Bu qəzet bütün idmançılar, idmansevərlər kimi, idman akademiyasının professor-müəllim və tələbə heyətinin də sevimli qəzetidir. Tədris ocağımızın idman həyatında baş verən ən kiçik hadisələr belə, qəzetdə öz əksini tapır. “Olimpiya dünyası” qəzetinin mehriban və işgüzar kollektivi var. 20 illik yubileyi münasibətilə qəzetin kollektivini ürəkdən təbrik edir, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

# AMADA son 5 ilin statistikasını açıqladı

Azərbaycan hər bir idman ölkəsi kimi, daim dopinqlə mübarizədə qətiyyətini və təmiz idman prinsiplərinə sadiqliyini nümayiş etdirir. Bütün sahələrdə olduğu kimi, idmanda da ədalət və dürüstlük prinsiplərinin qorunması dövlətimiz üçün dəyişməz prioritetdir. Azərbaycan Prezidenti İlham Əliyevin Fərmanı ilə 2016-cı ildə Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) yaradılması ölkəmizin ədalət, dürüstlük prinsiplərinə və təmiz idman dəyərlərinə sadiqliyinin nümunəsidir və dopinqlə mübarizədə dövlətin qətiyyətli iradəsini göstərir. Bu iradənin təzahürü olaraq AMADA fəaliyyət göstərdiyi beş il ərzində beynəlxalq standartların, qabaqcıl təcrübələrin və müasir innovativ üsulların tətbiqi ilə ölkədə dopinq nəzarəti prosesini uğurla həyata keçirir. İdmançıların sağlamlığının, dürüst idmançıların hüquqlarının və ölkənin təmiz idman imicinin qorunması məqsədilə effektiv antidopinq siyasəti həyata keçirilir. Bu illər ərzində AMADA beynəlxalq tədbirlərdə fəal iştirakı və qlobal antidopinq prosesinə verdiyi töhfələrlə etibarlı tərəfdaş kimi tanınıb.

AMADA-dan "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, statistik rəqəmlərin illər üzrə müqayisəsi də antidopinq sahəsindəki inkişafı əyani olaraq göstərir. AMADA-nın fəaliyyətə başlamasından sonra Azərbaycanda antidopinq qayda pozuntularının sayında əhəmiyyətli dərəcədə azalma müşahidə olunur. Azalma xüsusi ilə də beynəlxalq səviyyəli antidopinq qayda pozuntularının sayında özünü göstərir.

Beynəlxalq təcrübəyə əsasən, antidopinq qayda pozuntularının sayının illər üzrə müqayisəsini aparmaq üçün keçirilən test saylarının aşkarlanan antidopinq qayda pozuntularına nisbəti əsas götürülür.

AMADA-nın test proqramı icra etməyə başladığı 2017-ci ildə 487 test götürülüb və 21 idmançı barədə antidopinq qayda pozuntusuna görə idmandan uzaqlaşdırma qərarı verilib. Bu isə götürülən testlərin 4,5 faizini təşkil edir. Bu nisbət 2018-ci ildə 2,5 faiz, 2019-cu ildə 1,3 faiz, 2020-ci ildə 0,5 faiz, 2021-ci ilin indiyədək olan dövründə isə 0,2 faiz təşkil edib.

Nəzərə almaq lazımdır ki, milli test proqramı ilbəil daha da təkmilləşdirilib, risk qrupları müəyyən edilərək hədəfli testlər götürülüb və antidopinq qayda pozuntularının aşkarlanması üçün lazımi digər addımlar atılıb. Bütün bunların müqabilində aşkarlanan antidopinq qayda pozuntularının nisbətinin aşağı düşməsi onu göstərir ki, AMADA-nın beş illik fəaliyyəti dövründə həyata keçirdiyi səmərəli tədbirlər öz bəhrəsini verir. Artıq peşəkar idmançılar dopinqdən istifadənin fəsadları və hüquqi nəticələri barədə daha məlumatlıdır. Bu baxımdan aparılan genişmiqyaslı antidopinq maarifləndirməsi və təbliğatı xüsusi çəkiyə malikdir. Belə ki, AMADA Azərbaycanın idman ictimaiyyətini, o cümlədən peşəkar və həvəskar idmançıları, məşqçiləri, idmançıya dəstək heyətini, həkimləri və universitet tələbələrini əhatə edən müxtəlif növ təhsil proqramları icra edir. Antidopinq maarifləndirməsi çərçivəsində idman federasiyaları və idman məktəblərində müxtəlif yaş qruplarına aid idmançılar, məşqçilər, idman həkimləri və digər idman subyektləri üçün silsilə seminarlar təşkil olunur. İdman təmayüllü ali təhsil ocaqlarının bakalavr və magistr pillələrində əməkdaşlarımız tərəfindən antidopinq tədris proqramı həyata keçirilir. Bundan əlavə, ölkədə keçirilən yerli və beynəlxalq səviyyəli yarışlarda, habelə ənənəvi mətbuatda və sosial mediada geniş antidopinq təbliğatı aparılır.

Görülən kompleks tədbirlərin nəticəsində beynəlxalq səviyyədə də antidopinq qayda pozuntularının sayında nəzərəçarpan azalma müşahidə olunur. Bu isə onu göstərir ki, beynəlxalq yarışlarda

AMADA
STAY CLEAN

ölkəmizi təmsil edənlərin əksəriyyəti AMADA-nın antidopinq maarifləndirmə proqramlarını mənimsəmiş və təmiz idman dəyərlərinə hörmətlə yanaşan idmançılardır. Çünki antidopinq qayda pozuntuları törədən idmançılar əksəriyyəti elə ölkə daxilində müəyyən edilir və onların beynəlxalq yarışlarda iştirakının qarşısı alınır.

AMADA-nın fəaliyyət göstərdiyi ilk dörd illə (2017-2020-ci illər, 2021-ci il bitmədiyi üçün müqayisəli təhlilə daxil edilməyib) ondan əvvəlki dörd ilin (2013-2016-cı illər) müqayisəsi də bunu aydın göstərir. Belə ki, 2013-2016-cı illərdə beynəlxalq səviyyədə Azərbaycan idmançılarında 40 antidopinq qayda pozuntusu aşkarlanmışdısa, bu rəqəm AMADA-nın fəaliyyətə başlamasından sonrakı dörd ildə iki dəfə azalaraq 20-yə bərabər olub. Müqayisə üçün deyək ki, təkcə, 2013-cü ildə aşkarlanan beynəlxalq səviyyəli antidopinq qayda pozuntularının sayı (24 ədəd) AMADA-nın beş illik fəaliyyəti dövründə aşkarlanan antidopinq qayda pozuntularından (21) çoxdur.

Son illər qlobal səviyyədə antidopinq tədbirləri daha da gücləndirilib və bu sahədə qayda pozuntularının aşkarlanmasında ən müasir laborator üsullardan istifadə olunur. Belə ki, dünya üzrə 2017-ci ildə aşkarlanan beynəlxalq antidopinq qayda pozuntularının sayı 2016-cı illə müqayisədə 13 faiz artıb. 2018-ci ildə isə əvvəlki ildən daha 6,5 faiz çox qayda pozuntusu qeydə alınıb. Bununla belə həmin illərdə də Azərbaycan idmançılarında antidopinq qayda pozuntusu aşkarlanması hallarında azalma müşahidə olunub.

İlbəil beynəlxalq səviyyədə aşkarlanan antidopinq qayda pozuntularının sayında müntəmadi azalma müşahidə olunur və son illər bu rəqəm minimuma enib. Belə ki, son üç ildə beynəlxalq səviyyədə Azərbaycan idmançılarında cəmi iki antidopinq qayda pozuntusu aşkarlanıb.

AMADA-nın fəaliyyət göstərdiyi dövrün illər üzrə statistik rəqəmlərin müqayisəli təhlili göstərir ki, dopinqlə mübarizə sahəsində həyata keçirilən dövlət siyasəti davamlı və sistemli xarakter daşıyır. İdmançılar başda olmaqla idman ictimaiyyəti dopinq nəzarətinin vacibliyini və antidopinq qayda pozuntularının aşkarlanmasının qaçılmaz olduğunu dərk edir, təmiz idmanın alternativinin olmadığının fərqindədir.

Azərbaycan bütün sahələrdə olduğu kimi, idmanda da təmiz qələbələr qazanır və bərqərar olan ədalətin rəmzinə çevrilmiş bayrağımız qürurla ucaldılır.



## Şəhid övladı "Neftçi"nin qonağı oldu

Azərbaycan Silahlı Qüvvələrinin mayoru, şəhid Ramid Hacıyevin oğlu Əli Hacıyev "Neftçi" klubunun qonağı olub.

Klubdan verilən məlumata görə, "Neftçi"nin azarkeşi olan Əli komandanın "Türk Hava Yolları Futbol Mərkəzi"ndə keçirilən məşqini izləyib. Sonra komanda üzvləri ilə söhbətləşən şəhid övladı meydançaya çıxaraq futbolçularla top qovub. Əliyə sevimli futbolçusu Emin Mahmudov öz formasını hədiyyə edib. Ona üzərində komanda üzvlərinin imzası olan top, həmçinin forma və şərf də hədiyyə olunub. Sonda xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, Ramid Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, oktyabrın 16-da Suqovuşan döyüşləri zamanı şəhid olub və II Fəxri xiyabanda dəfn olunub. Ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

## Azərbaycan çempionatının qalibləri müəyyənləşdi




Sumqayıt Olimpiya İdman Kompleksində kişilər və qadınlar arasında start götürən taekvondo üzrə Azərbaycan çempionatı başa çatıb. Yarışda 17 yaşdan yuxarı idmançılar mübarizə aparıblar. Yekun nəticələrə görə, qadınlar arasında Sona Ağayeva (46 kq), Röya Hacıyeva (49 kq), Patimat Abakarova (53 kq), Səidə Əliyeva (57 kq), Fatimə Məcidova (62 kq) qızıl medal qazanıblar. Kişilərin yarışında isə Səyyad Dadaşov (54 kq), Pərviz İsgəndərov (58 kq), Qaşım Maqomedov (63 kq), Cavad Ağayev (68 kq), Məhəmməd Məmmədov (74 kq), Səid Quliyev (80 kq), Taleh Süleymanov (87 kq), Xəyyam Ağayev (+87 kq) qalib olublar. Turnirdə 100-ə yaxın taekvondoçu mübarizə aparıb.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsində düşmənə qarşı igidliklə döyüşən taekvondoçularımız idmançılara dəstək üçün yarışlarda həm qonaq, həm də ədalət təmsilçisi kimi iştirak ediblər.

Yarış koronavirus pandemiyası ilə əlaqədar müəyyən olunan karantin rejimi qaydalarına uyğun və bütün şərtlərə əməl edilməklə təşkil olunub.

## *Qazilərimiz qış idman növləri üzrə məşqlərdə iştirak ediblər*

Paralimpiya millimizə yeni cəlb edilmiş qazilərimiz Rusiyanın Ufa şəhərində qış idman növləri üzrə keçirilən təlim-məşq toplantısında iştirak edirlər. Azərbaycan Milli Paralimpiya Komitəsindən (AMPK) verilən məlumata görə, qazilərimizə qış idman növləri haqqında ətraflı məlumat verilib və onlar ilk dəfə xizək üzərinə çıxıblar. Qış idman növləri üzrə təlim-məşq toplantısı dekabrın 17-dək davam edəcək. Digər qazilərimizin də idmana cəlb edilməsi ilə bağlı işlər davam etdirilir.



## Şahmatçımız "Titled Tuesday Blitz" turnirində üçüncü oldu

Azərbaycan şahmatçısı Xəzər Babazadə onlayn "Titled Tuesday Blitz" turnirində uğurla çıxış edib.

Təmsilçimiz 11 turdan 9,5 xal toplayıb və əlavə göstəricilərə görə üçüncü yeri tutub. Onunla eyni xala malik rusiyalı Valeri Sviridov turnirin qalibi olub. Digər təmsilçilərimiz Vüqar Rəsulov və Vüqar Manafov 8,5, Vasif Durarbəyli isə 8 xal toplayıblar.

İsveçrə sistemi üzrə keçirilən yarışda 500-dən çox şahmatçı iştirak edib.

## Şəhriyar Məmmədyarov yenidən ilk "onluq"da

Beynəlxalq Şahmat Federasiyası (FIDE) yeni reytinq cədvəlini açıqlayıb. Siyahının ilk onluğuna Azərbaycanın bir şahmatçısı da daxil olub. Bu reytinq əmsalı 2765 olan Şəhriyar Məmmədyarovdur. Qrossmeysterimiz yeni siyahıda 2 pillə irəliləyərək 9-cu sıraya yüksəlib. Şəhriyardan fərqli olaraq, digər qrossmeysterimiz Teymur Rəcəbov isə əvəlki mövqeyini itirib. Belə ki, şahmatçımız yeni siyahıda 1 pillə geriləyərək 2753 xalla 14-cü sırada yer alıb.

Digər şahmatçılarımızdan Rauf Məmmədov (2656) və Qədir Hüseynov (2661) da geriləyiblər. R.Məmmədov 61-ci pillədən 86-cı, Q.Hüseynov isə 74-cü sıradan 80-ci pilləyə geriləyib. Siyahıya norveçli dünya çempionu Maqnus Karlsen (2856) başçılıq edir. 2 799 xalı olan çinli Dinq Liren 2-ci pillədəki mövqeyini itirib. 3-cü sıraya geriləyən şahmatçını 2804 xalı olan Fransa təmsilçisi Alireza Firuzca əvəzləyib. ABŞ-dan olan Fabiano Karuana (2 792) isə 4-cü sıraya enib.

Qadın şahmatçılardan Günay Məmmədzadə (2470) 26-cı, Gülnar Məmmədova (2 3875) 71-ci, Xanım Balacayeva isə (2376) 83-cüdür.

Qadınların reytinq cədvəlinə çinli Hou Yifan (2658 xal) başçılıq edir. Rusiyalı Aleksandra Qoryaçkina (2604 xal) və hindistanlı Hampi Koneru (2586 xal) ilk üçlüyü tamamlayıblar.

## Qrossmeysterimiz Qran-Pri seriyası turnirində mübarizə aparacaq

Gələn il fevralın 3-də şahmat üzrə Qran-Pri seriyasının birinci mərhələsi start götürəcək. Dünyanın güclü şahmatçılarının iştirak edəcəyi yarışda Azərbaycanı Şəhriyar Məmmədyarov təmsil edəcək. Seriyanın birinci və üçüncü mərhələləri Berlində keçiriləcək. Belə ki, fevralın 3-dən 17-dək birinci, martın 21-dən aprelin 4-dək üçüncü mərhələlər təşkil ediləcək. Turnirin ikinci mərhələsi isə Belqradda fevralın 28-dən martın 14-dək keçiriləcək. Turnirdə 24 şahmatçı iştirak edəcək. İştirakçıların hər biri seriyanın yalnız iki mərhələsinə qatıla bilər. Turnirin yekunlarına görə, iki şahmatçı 2022-ci ildə keçiriləcək iddiaçılar turnirinə vəsiqə əldə edəcək.

Unudulmayan Olimpiya çempionları

# "Buzun kraliçası" - Sonya Heni

*"Əgər siz özünüzü yüksək qiymətləndirmirsinizsə, kainat sizə bir qram artığını təklif etməyəcək"*

*Sonya Heni*

İdman dünyasında kifayət qədər nailiyyətə sahib və maraqlı həyatı olan idmançılar az deyil. Lakin hər kəsə Adolf Hitlerin malikanəsində şam etmək, üçqat Olimpiya çempionu, on qat dünya və dəfələrlə müxtəlif turnirlərin qalibi olmaq nəsib olmur. Daim məşhur idmançılardan maraqlı yazılar hazırlayan "Olimpiya dünyası" qəzeti oxucularına bu dəfə fiqurlu konkisürmədə fenomen olan Sonya Heninin ağılasığmaz uğurlarını və bir çox maraqlı məqamları təqdim edir.

Sonya Heni 1912-ci il aprelin 8-də Norveçin Hristianiya (indiki Oslo) şəhərində varlı bir ailədə dünyaya gəlib. Onun atası Vilhelm Heniyə anasından bir neçə zavod, atasından isə kürk biznesi miras qalmışdı. Sonyanın idmana qarşı olan sevgisi və istedadı da demək olar ki, məhz atasında keçib. Belə ki, Vilhelm Heni keçmişdə əla velosipedçi olub. O, hətta, 1894-cü ildə Antverpendə keçirilən velosiped yarışları üzrə dünya çempionu adını qazanıb. Konkisürənin anası isə Norveçə ağac daşıyan gəmilərin kirayəçisi olmuşdu. Ailənin Sonyadan başqa Leyf adlı bir oğul övladları da var idi. Heni ailəsinin evində Avropanın kral ailələrinə mənsub şəxslərə daim qonaqlıqlar təşkil olunurdu. Bir sözlə, Vilhelm Heninin varlığı hər kəsin dilində dastana dönmüşdü. Belə ki, 1905-ci ildə Norveçin paytaxtında bir çox sakinlər at arabası ilə hərəkət etdiyi vaxtda, Heni ailəsi "Horch" (müasir audi - T.N) markalı avtomobil sahibi idi.

## Fiqurlu konkisürmədə sensasiya

Velosiped üzrə dünya çempionu olan Vilhelm həyat yoldaşı ilə birgə idmana olan sevgini övladlarına lap kiçik yaşlarından aşılayırdı. Bununla da, kiçik qızı Sonya artıq xizək idman növündə uğurlu nəticələr əldə edirdi. O, həmçinin beynəlxalq dərəcəli tennis, üzgüçülük ilə də məşğul olurdu. Maraqlıdır ki, Sonyanın fiqurlu konkisürmə növündə olan istedadını ilk olaraq, onun qardaşı kəşf etmişdi.

"Mən həmin vaxt Osloda hokkey oynayırdım. Bacımın beş yaşı var idi və o, bütün gün mənim arxamca gəzirdi. Sonya çox tərs olduğu üçün onu özümdən uzaqlaşdırıb, evə göndərmək qeyri-mümkün idi. Bir gün o, məndə ayaqqabılara bərkidilən köhnə dəmirli konkilərimin olduğunu gördü. Elə həmin ərəfədə uşaqlar arasında çempionat keçirildiyi barədə məlumat yayıldı. İnanılmaz olsa da, beş yaşında bir uşaq həmin çempionatın qalibi oldu", - deyə Leyf Heni "Buzun kraliçası, kölgələrin kraliçası" adlı bioqrafik kitabda qeyd edib.

Sonyanın qələbə qazanadığını bilən atası isə ona dərhal yeni konkilər hədiyyə etdi. Məhz bu qələbədən sonra Vilhelm Heni qızını məşhur idmançı kimi yetişdirməyə qərar verdi. O, Sonyaya dərs demələri üçün evinə dünyanın ən yaxşı müəllimlərini dəvət edirdi. Hətta həmin müəllimlər arasında məşhur rus balerinası Tamara Karsavina belə var idi. Sonya Osloda yerləşən "Froqner" stadionunda məşq edirdi. Elə burada da o, asanlıqda bütün yerli yarışlarda qələbə qazanırdı. Qızcığaz 9 yaşında olarkən böyüklər arasında keçirilən Norvec çempionatında iştirak etdi. Artıq 11 yaşında isə Şamonidə (Fransa) I Qış Olimpiya Oyunlarını 8-ci pillədə bitirdi. 1927-ci ildə Sonya Heni dünya çempionatında ilk qələbəsini əldə etdi. Təəccüblü olsa da, bundan sonra o, 10 il ardıcıl dünya çempionatının qalibi oldu. Bir il sonra isə 1928-ci ildə idmançı Olimpiya çempionu adını qazandı. Sonya Heni 15 yaşında fərdi fiqurlu konkisürmə yarışlarında qələbə qazanmaqla idman aləmində əsl sensasiya yaratdı.



"Olimpiya Oyunlarında qazandığım qələbə mənim üçün çox böyük əhəmiyyət kəsb edirdi. Nəticələri elan etdikdən sonra mən soyunub-geyinmə otağında oturub xeyli ağladım. Həmin an özümü dağın zirvəsinə çatmaq üçün uzun yol qət etmiş kimi hiss edirdim. Lakin indi anlayıram ki, mənim zirvəyə yüksəlməyim bir göz qırpımında baş verdi. Amma həmin yolu keçmək mənə çox çətin oldu!", - deyə sonralar Sonya xatırlayırdı.

## Fiqurlu konkisürmədə qısa ətəkli geyim, ağ çəkmə və rəqs xoreoqrafiyası istifadə edən ilk idmançı

1927-ci ildə Sonya Heni Osloda keçirilən dünya çempionatının qalibi oldu. Lakin bu qələbə asanlıqla əldə olunmadı. Belə ki, gərgin idman şəraitində keçən yarışmanın qalibi



hakimlər tərəfindən uzun çəkən müzakirələrdən sonra Sonya olub. Sankt-Morisdə II Qış Olimpiya Oyunları başlayanda Sonyanın heç 16 yaşı tamam olmamışdı. Sonyanın həmin vaxt artıq dünya çempionu olmasına baxmayaraq, hər kəs avstraliyalı Frits Burqerin və ya amerikalı Beatris Lauqrenin qalib olacağını düşünürdü. Lakin nəticədə avstraliyalı idmançı ikinci, amerikalı konkisürən isə üçüncü pillədə qərarlaşdı. Olimpiya Oyunlarının qalibi isə Sonya Heni oldu. Sonya idman ustalığı ilə yanaşı, buzun üzərində nümayiş etdirdiyi artistik hərəkətləri və gözəlliyi ilə azarkeşləri heyran etmişdi. Möhtəşəm çıxışı ilə yeniyetmə qızcığaz II Qış Olimpiya Oyunlarının qəhrəmanına çevrildi. Həmin vaxt, bəlkə də, bəzi azarkeşlər Sonyanın 1972-ci ildə "Elizabet üçün yeddi gün" filmində debütünü izləmişdi. Bununla da, norveçli idmançının fantastik karyerasına start verildi. İdmançı ardıcıl olaraq 10 dəfə dünya çempionu (1927-1936-cı illər), altı dəfə Avropa çempionu (1931-1936-cı illər), iki dəfə isə Qış Olimpiya çempionu adını qazandı. O, mürəkkəb çıxışların və buzda tullanmanın qüsursuz ifası ilə məşhurlaşdı. Həmçinin Sonya çətin vəziyyətlərdə hisslərinə hakim olmağı, buzun üzərində hər zaman özünə əmin şəkildə durmağı ilə azarkeşlərin qəlbinə yol tapdı. Qış Olimpiya Oyunlarında ilk qələbəsindən sonra məşhurlaşan Sonya Heniyə bütün dünyadan olan azarkeşlər heyranlıq məktublarını yollayırdılar. 1932-ci ildə keçirilən III Qış Olimpiya Oyunlarındakı qələbəsindən sonra isə o, azarkeşlərin məktublarını cavablandırmaq üçün atası Vilhelm Heninin şəxsi katibi təyin etdi. Belə ki, yalnız atası qızının imzasını təqlid etməyi bacarırdı. Artıq hakimlərin fiqurlu konkisürmə yarışlarında ən yaxşı kimin olduğuna dair şübhələri yox idi. Düzdür, 1936-cı ildə Almaniyanın Qarmiş-Partenkirhe şəhərində keçirilən IV Qış Olimpiya Oyunlarında qalmaqalın yaranmasının qarşısı güclə alındı. Belə ki, Sonyanın idman dünyasındakı düşmənləri MOK-un ikiqat Olimpiya çempionunu diskvalifikasiya edilməsini müzakirəyə çıxarmışdılar. Buna səbəb isə onların Sonyanı idman vasitəsi ilə gəlir əldə etməyi qadağan edən Olimpiya xartiyasını pozmasında təqsirli bilirdilər. Həmin vaxt isə fiqurlu konkisürən müxtəlif filmlərdə rol almağa davam edirdi və buzun üzərində öz mükəmməl çıxışlarını nümayiş etdirirdi. Lakin bütün idman növlərində lider olan Norveç millisi Sonyaya arxa-dayaq çıxaraq, onun oyunlardan diskvalifikasiya edildiyi təqdirdə Qış Olimpiya Oyunlarını boykot edəcəyini bəyan etdi. Təbii ki, belə bir seçim qarşısında qalan Beynəlxalq Olimpiya Komitəsi (BOK) geri addım atmağa məcbur qaldı. Yaşananlardan sarsılamayan Sonya Heni isə 24 yaşında üçüncü dəfə Olimpiya çempionu adını qazandı. 1936-cı ildə Sonya Heni karyerasını başa vuraraq həyatında yeni səhifə açdı. Gözəlliyi və cazibəsi ilə dillərdən düşməyən idmançı filmlərdə çəkilmək üçün Hollivuddan təklif aldı və ABŞ-a köçdü. Bu qərar onun məşhurluğunu birə-beş artırdı. Sonya Heni karyerası ərzində 11 filmdə rol alıb. Onlar arasında ən yaxşısı isə 1941-ci ildə lentə alınan "Günəş vadisinin serenadası"dır. Təbii ki, filmdə baş qəhrəmanın buzun üzərindəki solo ifalarına da xüsusi yer ayrıldı. Buna görə də, Sonyanın fiqurlu konkisürmə məşqləri, demək olar ki, heç vaxt dayanmırdı. Gərgin məşqlər və yarışlarla yanaşı, o, fiqurlu konkisürmə sərgilərinin iştirakçısı kimi Avropa ilə yanaşı, Amerikada da böyük məşhurluq qazanmışdı. Hətta Praqa və Nyu-Yorkdakı çıxışları zamanı onu azarkeş kütləsindən qorumaq üçün polisə müraciət olunmuşdu. Qızlarının ən böyük fanatları olan Vilhem və onun həyat yoldaşı Norveçdə olan xəz biznesini oğulları Leyfə həvalə edərək, Sonyanın bütün səfərlərində müşayət edirdilər. Sonya Heni fiqurlu konkisürmədə qısa ətəkli geyim, ağ çəkmə və rəqs xoreoqrafiyası istifadə edən ilk idmançı hesab olunur. Onun buz üzərindəki texnikası, etdiyi yeniliklər və məftunedici tərzi bu növü həmişəlik olaraq dəyişdi.

## Adolf Hitlerin "hava opüşü"

1936-cı ildə Berlində keçirilən sərgi zamanı baş verən hadisə hər kəsin diqqətini növbəti dəfə Sonyaya yönəltdi. Belə ki, gözlənilməz olsa da, Sonyanın çıxışını izləmək üçün Adolf Hitler, Herinq, Qibbrls və digər yüksək rütbəli şəxslər arenaya gəlmişdilər. Mötəbər qonaqların gəldiyini öyrənən idmançı, buz üzərinə çıxmağa bir neçə saniyə qalmış fürerin harada əyləşdiyini dəqiqləşdirdi. Sonya buzun bir başından o biri başına sürətlə sürüşərək tam A.Hitlerin qarşısında dayandı. O, qolunu qaldıraraq nasist salamlaşması ilə alman dilində "Hay Hitler!" deyə ucadan qışqırdı. Adolf Hitler isə onun bu hərəkətinə qarşılıq olaraq, ona "hava opüşü" yolladı.

Növbəti gün Norveç qəzetlərində iri şriftlərlə "Sonya nasistdir?" başlıqlı məqalələr dərc olunmağa başladı. Sonya isə bu xəbərə "nasistləri deyil, Almaniyanı salamlayırdım" deyə münasibət bildirmişdi. Bu cavabdan sonra məsələ ətrafında qalmaqal yavaş-yavaş səngiyirdi. Amma Adolf Hitlerin ordusunun Norveçə daxil olanadək onun Sonya ilə dostluğu davam edirdi.

Maraqlıdır ki, Sonya Heninin Berlində üçüncü dəfə Olimpiya çempionu olmasından sonra (1936-cı il) Adolf Hitler onu öz malikanəsinə nahar yeməyinə dəvət etdi. Hitler orada idmançıya şəxsi imzası olan portretini bağışlamışdı. Təsadüf yoxsa qismətdən məhz bu portret gələcəkdə Sonyanın ata evini almanlar tərəfindən viran edilməsindən xilas etdi. Belə ki, alman ordusu evdə Adolf Hitlerin imzalı portretini görəndə evdən heç nə götürməmiş və evə heç bir ziyan vurmamışdılar.

## "Buzun kraliçası" məşhurluğun zirvəsində

Sonya Heni 1936-cı ildə 24 yaşında idmanı tərk edib buz üzərində hollivud baletinin ulduzu oldu. Hər zaman qızına dəstək olan atası bu dəfə də onu tək buraxmadı. O, qızının daha da tanınması üçün Hollivudda xeyriyyə konsertləri təşkil edib bütün məşhur ulduzları bir araya toplayırdı. Tezliklə prodüser Derril Zanuk Sonyanın filmdə əsas qəhrəmanı canlandıracağı hər bir film üçün 75 min dollarlıq, beş illik müqavilə təklif etdi. Beləliklə, Sonya Heninin aktrisa karyerasında ilk uğuru "Milyonda bir" filmi oldu. 1927-1958-ci illərdə S.Heni 15 filmə çəkildi.

Bununla yanaşı o, Artur Virs ilə buz üzərində balet turu müqaviləsi imzalamışdı. Məşhurluğun zirvəsində olan zaman Sonyanın keçirdiyi turlar ona illik 2 milyon dollar gəlir qazandırırdı. Bundan əlavə "buzun kraliçası" konyak, geyim, zinət əşyaları reklamlarından da külli miqdarda gəlir əldə edirdi. Həmin dövrdə o, dünyanın ən varlı qadınlarından biri idi. Sonyanın qardaşı Leyf bacısını təsvir edərək, onun pul və yüngül həyat tərzi keçirməyi sevdiyini vurğulayırdı.

Həmçinin Leyf Heni "Buzun kraliçası, kölgələrin kraliçası" kitabında Sonyanın qəliz xasiyyəti olduğunu və şəxsi mənafeyi üçün insanları, hətta yaxınlarını belə rahatlıqla istifadə etdiyini qeyd edib. Deyilənə görə, tibb bacısı Sonyaya onun anasının artıq can verdiyini bildirdiyi anda o, heç də kədərlənməmişdi. Əksinə, sakit tərzdə katibindən anasının zinət əşyalarını götürməsini tələb etmişdi.

## Üç nikah və gözlənilməz ölüm

Üç rəsmi nikahla yanaşı, Sonyanın xeyli sevgi macəraları olub. Məşhur idmançının tərəfdaşları sırasında fiqurlu konkisürənlər Cek Dann, Stüart Rebern və aktyor Van Conson var idi.

Sonyanın sonuncu həyat yoldaşı norveçli gəmiqayırma ustası, elm və mədəniyyətin inkişafı üçün təmənnasız yardımlar edən Nils Unstad olub. Deyilənə görə, yalnız Nils Sonyanın iradəsinə müqavimət göstərə biləcək yeganə insan idi. S.Heninin əvvəlki iki həyat yoldaşından fərqli olaraq, biznesmen N.Ustad həyat yoldaşının maddi dəstəyinə ehtiyac duymurdu.

S.Heni həyat yoldaşını onun yanında, yəni qərb sahilində yaşamağa məcbur edirdi. Amma onun təkidlərinə baxmayaraq, Nils bununla razılaşmadı və Sonya şərq sahillərinə köçmək məcburiyyətində qaldı. Nils ən sevimli gəmisini Sonyanın şərəfinə adlandırmışdı. O, həyat yoldaşının çətin xasiyyətinə və qohumları ilə olan söz-söhbətlərinə həyatının sonuna kimi dözməyə hazır idi. Məhz Nils həyat yoldaşına incəsənətə investisiya qoymaq ideyasını təklif etdi. Bununla da, 1968-ci ildə onlar "Heni-Ustad" incəsənət mərkəzi açdılar. Həyat yoldaşların kolleksiyası kimi saxlanılan muzeyi hər il yüz min insan ziyarət edir.

Əgər nağıllarda əsas qəhrəmanlar xoşbəxt və uzun ömür yaşayırlarsa, Sonyada bu belə olmadı. Belə ki, leykomiyadan əziyyət çəkən Sonya Heni 1969-cu ilin oktyabr ayında Parisdən Osloya uçarkən təyyarədə 57 yaşında dünyasını dəyişdi.

*Hazırladı:*
*Türkay Niftəliyeva*

# “Mançester Yunayted”in tarixində qara təqvim

***1958-ci il fevral ayının 6-sı saat 14:31-də G-ALZU AS 57 təyyarəsi Münhen aeroportundan havaya qalxdı. İngiltərənin tanınmış klublarından biri "Mançester Yunayted"in oyunçularını, şəxsi heyətini, həmçinin bir neçə jurnalist və azarkeşləri daşıyan təyyarə üçüncü uğursuz cəhddən sonra göyə qalxsa da... Az sonra tufan səbəbindən hava gəmisi qəzaya uğradı və futbol tarixində silinməz iz buraxdı.***

O vaxt Avropa Çempionlar Kubokunun görüşləri çərçivəsində "Red Star" ("Srvena Zvezda") üzərində qələbə çalmış "Mançester Yunayted" Belqraddan qayıdırdı. Təyyarə Münhenə yanacaq doldurmaq məqsədi ilə enmişdi. Faciəli qəza nəticəsində 43 sərnişindən 23-ü həlak olmuşdu. Qəzadan sonra təyyarə tanınmaz hala düşmüşdü. Evlərdən birinə toxunması nəticəsində, "hava gəmisi"ndə yanğın baş vermişdi.

Bill Foulks həmin anları yaxşı xatırlayır: "Təyyarənin arxa hissəsi sadəcə yoxa çıxmışdı. Mən bacardığım qədər sürətlə qaçmağa çalışırdım. Elə qaçır və uzaqlaşmaq istəyirdin. Bir qədər sonra arxaya döndüm və anladım ki, təyyarə partlamayacaq və geri qayıtdım. Həmin məsafədə mən təyyarənin yanmış qalıqlarını görə bilirdim. Rocer Bern öz kreslosuna bağlanmışdı, Bobbi Çarlton isə tərpənməz halda digər oturacaqda uzanmışdı. Bu zaman Hari Qreqq peyda oldu və biz hələ xilas edilməsi mümkün olan şəxsləri axtarmağa başladıq. Ağır yaralanmış Met Basbiyə iki həmkarı kömək edirdi. Bobbi Çarlton yerindən güclə qalxaraq, bizə kömək etməyə gəldi. Yaralıların hamısını Münhendəki "Rechts de İsar" xəstəxanasına apardılar. Biz yalnız səhəri gün faciənin miqyasının nə qədər böyük olduğunu anlamışdıq. Biz palataya daxil olarkən, süni oksigen maskası altında yatan Met Basbi, ağır yaralanmış Dunkan Edvards, başısarıqlı Bobbi Çarlton, sifəti yaralanmış və əlisarıqlı olan Ceki Blançflaueri gördük. Albert Skanlon gözünü yummuş halda uzanmışdı.



**Qəza zamanı həlak olanlar:**
- Qeof Bent, Rocer Bern, Eddi Kolman, Dunkan Edvards, Mark Cons, Devid Perr, Tommi Teylor, Liam Vilan, Volter Krikmer, Bert Voley, Tom Karri, Alf Klark, Don Devis, Corc Folouz, Tom Cekson, Arçi Lidbrok, Henri Rouz, Erik Tompson, Frenk Svift, Kenet Reyment, Bela Miklos, Villi Satinoff, Tom Kleybl.




Mən tibb bacısı ilə söhbət etdim. Onun dediyinə görə, Dunkanın Conni ilə müqayisədə sağalmağa şansı daha çox idi. Biz artıq getməyə hazırlaşarkən, tibb bacısından digər yoldaşlarımızı harada görə biləcəyimizi soruşdum. O bir qədər məyus olduğundan, sualımı təkrar verməyə məcbur oldum: "Digər sağ qalanlar haradadır?". O cavab verdi: "Digərləri? Digərləri yoxdur, sağ qalanların hamısı buradadır". Biz yalnız o zaman baş vermiş faciənin bütün dəhşətlərini anlamağa başladıq. Basbinin uşaqları artıq həyatda deyildi".

Rocer Bern, Qeoff Bent, Mark Cons, Devid Pleqq, Liam Vilan, Eddi Kolman və Tommi Teylor dərhal həlak olmuşdular. Klubun katibi Volter Krikmer, məşqçilər Tom Karri və Bert Volle ilə bir zamanda həyatlarını itimişdilər.

Dunkan Edvards və Conni Berri isə ölümcül yaranlanmışdılar və yaşamaq uğrunda mübarizə aparırdılar. Met Basbi çoxlu yara almış və klub işçiləri arasında sağ qalmış yeganə insan idi. Ağır yaralı olan dörd nəfərdən yalnız ikisi sağ qaldı. Üç həftə sonra Dunkan Edvards və Kenett Reyment xəstəxanada vəfat etdilər.

Met Basbinin müharibə dövründən dostu halhazırda isə köməkçisi olan Cimmi Merfi Uels millisinin məşqçisi idi. Merfi yalnız təsadüf sayəsində komanda ilə bilikdə Belqrada getməyib. Məşqçi həmin günləri belə xatırlayır: "Mən hər zaman Avropa səyahətlərində Basbinin yanında olurdum. Lakin onun xahişini yerinə yetirərək, Yuqoslaviyaya getmədim. Düzü, mən o vaxt öz oyunlarımız haqqında daha çox düşünürdüm, nəinki Yuqoslaviya barəsində. Biz yarımfinala vəsiqə üçün çalışırdıq və bu məni bütün fikirlərimi ora cəmləşdirməyə məcbur edirdi. Bununla belə Metlə birgə olmamaq xoşuma gəlmirdi".

Faciə barədə xəbəri alanda Cimmi Uelsdən "Old Trafford"a yenicə dönmüşdü: "Met Basbinin katibi Elma Corc mənə dedi ki, təyyarə qəzaya uğrayıb. Mən donub qalmışdım. O, sözlərini yenidən təkrarladı. Mən onun nə dediyini anlaya və inana bilmirdim. Sonra Elma ağlamağa başladı. Katibə dedi ki, çoxları vəfat edib. O, yalnız oyunçulardan kiminsə həlak olduğunu bilirdi. Elmanın sözləri beynimdə səs-küy yaradırdı. Elma getdikdən sonra öz ofisimə keçdim: özümü itirmişdim, ağlamağa başladım".

Sonrakı gün Münhenə yola düşən Cimmi Merfi orada gördüklərindən dəhşətə gəlib: "Met süni oksigen maskası altındaydı və o mənə dedi: "Həmişə belə davam et". Dunkan isə məni tanıdı. Bu çox dəhşətli mənzərələr idi".

Basbi özünə gəldikdən sonra dedi: "Bu lənətə gəlmiş kuboku qazanmalıyıq! Həlak olmuş yoldaşlarımızın xatirinə biz bunu etməyə borcluyuq".

Xatırladaq ki, o vaxt həmrəylik əlaməti kimi digər ingilis klubları məşqçiləri özlərinin ən yaxşı gənc futbolçularını Mançesterə yolladılar: şotlandiyalı Dennis Lou, bir qədər sonra isə irlandiyalı Corc Best komandaya qoşulmuşdular. Komandanın ürəyi isə kapitan Bobbi Çarlton olmuşdu.

"Manikunianlar" 1965-ci ildə yenidən İngiltərə çempionu oldular, 1968-ci ildə isə verdikləri sözü yerinə yetirdilər. Yarımfinalda onlar Madridin "Real" klubunu məğlub etmişdilər. Cavab oyununda isə ingilislər 3:1 hesabı ilə uduzsalar da, ikinci hissədə hesabı bərabərləşdirə bildilər. Sonuncu, həlledici qolu qapıdan keçirən Bill Foulks oyundan sonra göz yaşlarını saxlaya bilməmişdi. Final matçında komandanı o vaxtlar parlaq oyunu ilə yadda qalan Eysebiolu "Benfika" gözləyirdi. Oyun əsas vaxtdan 1:1 hesabı ilə başa çatmışdı. Çarltonun vurduğu qola Qrasa cavab vermişdi. Əlavə vaxtda Bobbi Çarlton, Kidd və Corc Best fərqlənərək, qitənin ən nüfuzlu klub turniri kubokunu qazanırlar - 4:1.

Bildirək ki, "Benfika" ilə görüşdə Münhen faciəsindən sağ çıxmış 3 futbolçu meydanda mübarizə aparırdılar. Onlar final fitindən sonra meydanın mərkəzində əl-ələ tutaraq, faciə qurbanlarını xatırlamışdılar. London şəhərində matçda bütün azarkeşlər onların bu hərəkətini dəstəkləmişdilər.

Bobbi Çarlton sonralar öz qeydlərində bildirmişdi: "Özümü son dərəcə rahat hiss etdim. Həlak olmuş yoldaşlarımız qarşısında verdiyimiz andı yerinə yetirmişdik. Bu qələbə həyatımın ən önəmli qələbəsi idi".

# Avropadan transfer xəbərləri

## İngiltərə

“Çelsi” əsas qapıçısı Eduar Mendi ilə müqaviləni yeniləmək istəyir. “Zadəganlar” 29 yaşlı qolkiperə hazırkı



müqaviləyə əsasən həftədə 60 min funt sterlinq ödəyir. Bu razılaşmanın müddəti 2025-ci ilin yayında başa çatır. Yeni müqavilənin şərtləri ona daha çox qazanmaq imkanı verəcək.

* * *

“Mançester Yunayted” qış transfer “Çelsi”dən Timo Verneri almağı planlaşdırır. 25 yaşlı hücumçu ilə baş məşqçi Ralf Ranqniklə xüsusən maraqlanır.

Qeyd edək ki, Verner bu mövsüm 11 matçda 3 qol vurub və 1 qolun ötürməsini verib.

* * *

“Tottenhem” heyətini “İnter”in futbolçusu İvan Perişiçlə gücləndirmək niyyətindədir.

32 yaşlı hücumçunun keçidi ilə London klubunun baş məşqçisi Antonio Konte xüsusən maraqlanır. O, A seriyasında da Perişiçlə birlikdə çalışıb.

Qeyd edək ki, cari mövsümün 17 matçında 3 qol vuran İvanın müqaviləsi 2022-ci ilin yayında başa çatacaq.

* * *

“Barselona” ilə yeni müqavilə uzatmaqla bağlı razılığa gələ bilməyən Usman Dembele karyerasını İngiltərədə davam etdirə bilər. Fransalı futbolçu “Tottenhem”in maraq dairəsindədir.

“Barselona”da qalmaq istəyən Dembele klub rəhbərliyi ilə müqavilənin şərtlərində razılaşmır. Onun London klubuna keçidi üçün elə bir ciddi maneə yoxdur.

## İspaniya

“Barselona” qış transfer pəncərəsində bir neçə futbolçusu ilə yollarını ayıra bilər. İspaniya mətbuatında yayılan xəbərlərə görə kataloniyalılar klubda transferə pul ayırmaq, həm də maaş limitini azaltmaq istəyirlər. Rəhbərlik yüksək məvacib qazanan bəzi oyunçuları - Sergio Dest, Klemen Lanqle, Ronald Arauxo, Frenki de Yonq, Mark-Andre ter Ştegeni komandadan göndərmək istəyir.

* * *

“Mançester Yunayted”in futbolçusu Edinson Kavani gələn ilin yayında başa çatacaq müqaviləsini yeniləmək istəmir. Səbəb uruqvaylı hücumçu “Barselona”ya keçmək istəyində olmasıdır. Kataloniya klubu da mövsümün sonunda azad agent olacaq forvardın keçidində maraqlıdır.

Qeyd edək ki, Kavani 2020-ci ilin yayından “Mançester Yunayted”də çıxış edir. 34 yaşlı futbolçu bu mövsüm Premyer Liqada 5 oyuna 1 qol vurub.

* * *

“Barselona” “Çelsi”nin müdafiəçisi Sezar Aspilikueta diqqət mərkəzinə salıb. “Marca” nəşrinin yaydığı məlumata görə 23 yaşlı oyunçunun London klubu ilə müqaviləsi yayda başa çatır. Lakin tərəflər yeni müqavilə ilə bağlı hələ də razılığa gəlməyiblər. “Barselona” belə olduğu təqdirdə ispaniyalı müdafiəçini azad agent kimi transfer etmək istəyir.

Qeyd edək ki, Aspilikueta bu mövsüm 15 matça çıxıb və 3 qol ötürməsi verib.

* * *

“Real” hücum xəttini gücləndirməkdə israrlıdır. Madrid təmsilçisi Dortmund “Borussiya”sından Erlinq Haalandı, ya da PSJ-dən Kilian



Mbappeni heyətinə cəlb etməyi çalışır. Əgər bu transferlərdən hər hansı biri həyata keçərsə, Kərim Benzema “Real”dan ayrılacaq. Fransalı hücumçu ilə PSJ və “Liverpul” yaxından maraqlanır. Ancaq “Real”ın PSJ-ni Avropada əsas rəqibi saydığından klub prezidenti Florentina Peresin Benzemanı Paris təmsilçisinə satmayacağı qeyd olunub. Buna görə də Benzemanın “Liverpul”a keçidi daha real görünür. Futbolçunun özünün də Premyer Liqada oynamaq istəyinin olduğu bildirilir.

## Almaniya

Dortmund “Borussiya”sı komandadan gedəcəyi gözlənilən Erlinq Haalandın əvəz-



ləyicisini axtarır. Bundesliqa təmsilçisi “Benfika”dan Darvin Nunyesi Haalandın yerinə əsas namizəd hesab edir. “Borussiya” forvardı qışda heyətinə cəlb edə bilər. Nunyesin transfer qiyməti 25 milyon avro təşkil edir.

Qeyd edək ki, əlavə edək ki, Haalandla “Barselona”, “Real” və “Mançester Yunayted” yaxından maraqlanır.

## İtaliya

“Milan” zədəli mərkəz müdafiəçisi Simon Kyaerin əvəzinə Samuel Umtitini heyətinə cəlb etmək istəyir. Klub “Barselona”nın futbolçusunu qışda transfer etməyə qərar verib. Umititi özü də “Milan”ın formasını geyinmək arzusundadır.

Qeyd edək ki, A seriyasının 15-ci turunda “Cenoa” (3:0) ilə matçın 4-cü dəqiqəsində dizindən aldığı xəsarət nəticəsində əvəzlənən Kyaer uzun müddətə sıradan çıxıb.

# FUTBOL



## Canni De Byazi ilə müqavilənin müddəti uzadıldı

AFFA İcraiyyə Komitəsinin dekabrın 2-də keçirilmiş növbəti iclasının qərarları açıqlanıb. Qəbul olunmuş qərara əsasən Azərbaycan milli komandasının baş məşqçisi Canni De Byazi ilə müqavilə 2022-ci il oktyabr ayına qədər uzadılıb. Baş məşqçi növbəti bir ay ərzində 10 aylıq hazırlıq planını AFFA-ya təqdim etməlidir.

Bundan başqa, aşağı yaş qruplarından ibarət milli komandalara baş məşqçilərin təyinatı olub. Füzuli Məmmədov U-15/U-16, Elxan Abdullayev, U-17, Aqil Nəbiyev U-18 yaş qrupunun baş məşqçisi təyin edilib.

İclasda, həmçinin AFFA tərəfindən Gəncədə Futbol Akademiyasının inşası, regionlarda klublara maliyyə dəstəyinin təmin olunması məqsədilə bölgələrdəki futbol klublarına dəstək fondunun təsis edilməsi qərara alınıb.

AFFA-nın Futbol Akademiyasının təmir olunması üçün FIFA Forward Layihəsindən 150 min ABŞ dolları, VAR layihəsi üçün isə 500 min ABŞ dolları məbləğində maliyyə vəsaitinin ayrılması təsdiqlənib.

## "Qarabağ" beynəlxalq reytinq cədvəlində 1 pillə irəlilədi

Avropanın top komandalarının reytinq cədvəli açıqlanıb. Qitənin 435 komandasının yer aldığı cədvəldə Azərbaycanın üç təmsilçisi var. Təmsilçilərimizdən yalnız "Qarabağ" klubu Top-100"də qərarlaşıb. Baş məşqçi Qurban Qurbanovun yetirmələri Avropada 84-cüdür. Ağdam klubunun hesabında 204 xal var.

Təmsilçimiz ötən siyahı ilə müqayisədə daha bir pillə irəliləyib. "Qarabağ" Təl-Əviv "Makkabi"sini arxada qoyub.

Otuz xalla "Neftçi" 246-cı, 20 xalı olan "Qəbələ" isə 288-ci sırada yer alıb.

Qeyd edək ki, siyahıya 2123 xalla "Real Madrid" başçılıq edir.

## "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi çərçivəsində növbəti tədbir



"Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi çərçivəsində növbəti tədbir AFFA-nın və Qobustan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə noyabrın 29-da keçirilib. Rayonun Xilmilli kəndində keçirilən tədbirdə 50 məktəbli, o cümlədən şəhid ailələrindən olan uşaqlar iştirak ediblər. Tədbirə AFFA-nın vitse-prezidenti, Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov, Milli Məclisin deputatları Arzu Nağıyev, Şahin Seyidzadə, Qobustan Rayon Gənclər və İdman İdarəsinin rəisi Qadir Əkbərov və rayon ictimaiyyətinin nümayəndələri qatılıblar.

Çıxış edənlər bildiriblər ki, 44 gün davam edən Vətən müharibəsində torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin canı-qanı bahasına işğaldan azad olunub. Şəhidlərimizin əziz xatirəsi Azərbaycan xalqının xatirəsində əbədi yaşayacaq. Respublikamızın müxtəlif regionlarının kənd və qəsəbələrində belə tədbirlərin təşkilinin kənd yerlərində idmanın inkişafı baxımından əhəmiyyəti qeyd olunub.

Tədbirdə iştirak edən 50 məktəbliyə futbola marağı artırmaq məqsədilə idman geyimləri və futbol topları verilib.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu ilin dekabrında Azərbaycan Milli Olimpiya Komitəsində çıxışı zamanı kəndlərdə idmanın inkişafına dair verdiyi tövsiyələrin yerinə yetirilməsi məqsədilə AFFA-nın təşəbbüsü ilə 2020-ci ildə karantin rejiminin tələblərinə əməl etməklə respublikamızın müxtəlif bölgələrində yerli icra hakimiyyəti orqanları ilə birlikdə "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi çərçivəsində tədbirlər keçirilib. Cari ildə isə tədbirlər Füzuli, Tərtər, Bərdə, Oğuz Xəzər, Cəbrayıl, Ağdaş, Tovuz, Gədəbəy, Kürdəmir, Salyan, Göyçay, Beyləqan, Göygöl rayonunun qəsəbə və kəndlərində, Gəncə şəhərinin Kəpəz rayonunda Vətən müharibəsi zamanı düşmənin raket hücumuna məruz qaldığı ərazidə təşkil olunub. Silsilə tədbirlərin respublikamızın digər bölgələrində də keçirilməsi nəzərdə tutulub.

## Rusiya Futbol İttifaqının nümayəndəsi ilə görüş keçirilib

AFFA-nın inzibati binasında "Danışılmış oyunlarla bağlı təcrübə mübadiləsi" çərçivəsində Rusiya Futbol İttifaqının Danışılmış oyunlar üzrə nümayəndəsi Oleq Altuxov ilə görüş olub. Görüşdə AFFA-nın baş katibinin müavini Sərxan Hacıyev və UEFA-nın danışılmış oyunlarla bağlı Azərbaycan üzrə nümayəndəsi Seymur Səlimli iştirak ediblər.



## Millimiz reytinq cədvəlində 28-ci pillədə qərarlaşıb

Dünya Çimərlik Futbolu təşkilatı milli komandaların yeni reytinq cədvəlini açıqlayıb. Azərbaycan millisi dünya reytinqində 390 xal ilə 28-ci, Avropa sıralamasında isə 10-cu pillədə qərarlaşıb. Reytinq cədvəlinə 4295 xalla Rusiya millisi başçılıq edir. Portuqaliya seçməsi 3479 xalla ikinci, Braziliya komandası isə 2695 xalla üçüncü olub.

## Klublararası dünya çempionatının keçiriləcəyi tarix müəyyənləşdi

2022-ci ildə keçiriləcək futbol üzrə klublararası dünya çempionatının keçiriləcəyi tarix müəyyənləşib. Turnir fevralın 3-dən 12-dək Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) təşkil olunacaq. Yarışın püşkatma mərasimi bu gün İsveçrənin Sürix şəhərində keçiriləcək.

Dünya çempionatında 7 komanda mübarizə aparacaq. Bunlar Səudiyyə Ərəbistanının "Əl-Hilal", Meksikanın "Monterrey", Yeni Zelandiyanın "Oklend Siti", BƏƏ-nin "Əl-Cəzirə", İngiltərənin "Çelsi" və Braziliyanın "Palmeyras" komandalarıdır.

Hazırkı klublararası mundial bu ilin dekabrında Yaponiyada keçirilməli idi. Lakin ölkə rəhbərliyi koronavirus pandemiyası ilə əlaqədar yarışın təşkilatçılığından imtina edib.

## "Qarabağ" vaxtından əvvəl qış çempionu oldu

Futbol üzrə Azərbaycan Premyer Liqasında XIII turun oyunları keçirilib. Turun açılış oyununa "Keşlə"-"Səbail" oyunu ilə start verilib. "ASK Arena"da keçirilən oyun 2:2 hesablı heç-heçə ilə yekunlaşıb. Baş hakim Rauf Cabbarovun idarə etdiyi oyunda meydan sahiblərinin heyətində Felipe Santos və Anatole Abanq fərqləniblər. "Səbail"in qollarını isə Rahid Əmirquliyev və Camal Araqo vurublar.

Bu nəticədən sonra xallarını 11-ə çatdıran "Keşlə" 7-ci pillədə qalıb. "Səbail" isə 10 xalla sonuncu - 8-cidir.

Turun digər oyununda "Azərsun Arena"da "Qarabağ" klubu "Sabah" komandasını qəbul edib.

FIFA referisi Əliyar Ağayevin idarə etdiyi qarşılaşma meydan sahiblərinin böyük hesablı qələbəsi ilə yekunlaşıb - 5:1.

Hesabı 16-cı dəqiqədə "Qarabağ"ın yarımmüdafiəçisi Abdullah Zubir açıb. Matçın 27-ci dəqiqəsində Bəxtiyar Həsənalızadə bərabərlik qolunu vursa da, oyunun 35-ci dəqiqəsində Filip Ozobiç Ağdam komandasını yenidən önə çıxarıb.

Fasilədən sonra "Qarabağ" daha üç qol vurub. Qarşılaşmanın 51-ci dəqiqəsində Abdullah Zubir dubl edib. Matçın 77-ci və 90-cı dəqiqələrində isə İbrahima Vadji uzun müddətdən sonra fərqlənərək, matçda son nöqtəni qoyub.

Bu qələbədən sonra xalını 30-a çatdıran "Qarabağ" liderliyini davam etdirib və vaxtından əvvəl qış çempionu olub. "Sabah" isə 5 oyundan sonra yeni baş məşqçisi Murad Musayevin rəhbərliyi ilə ilk məğlubiyyətlə üzləşərək, 14 xalla 5-ci pillədə qalıb.

Dekabrın 5-də futbol üzrə Azərbaycan Premyer Liqasında XIII turun daha bir oyunu keçirilib. "Bakcell Arena"da "Neftçi" və "Sumqayıt" komandaları üz-üzə gəlib. Baş hakim Vüqar Həsənlinin idarə etdiyi görüş qolsuz yekunlaşıb. Sönük məcrada keçən ilk yarıda tərəflər, demək olar ki, təhlükəli vəziyyət yarada bilməyiblər.



Fasilədən sonrakı azsaylı qol epizodlarında isə son nöqtəni qoymaq mümkün olmayıb.

Beləliklə, "Neftçi" son 5 oyunda 4-cü qarşılaşmasında qalib gələ bilməyib və 21 xalla 4-cü pillədə qalıb. Xalını 12-yə çatdıran "Sumqayıt" isə 6-cı yerdə qərarlaşıb.

Turun sonuncu oyununda "Zirə" "Qəbələ"ni qəbul edib. Qarşılaşma əyalət təmsilçisinin 2:1 hesablı qələbəsi ilə başa çatıb. Görüşdə ilk qol 32-ci dəqiqədə qeydə alınıb. Urfan Abbasov qonaqları hesabda önə keçirib. 40-cı dəqiqədə Rövlan Muradov cərimə zərbəsindən baxımlı qola imza ataraq "qırmızı-qaralar"ın üstünlüyünü iki topa çatdırıb. 86-cı dəqiqədə "Qəbələ"nin futbolçusu Omar Hanı ikinci sarı vərəqəni alaraq meydandan qovulub.

Paytaxt klubunun gürcüstanlı legioneri Davit Volkov 45+4-cü dəqiqədə fərqi azaltmağa müvəffəq olub.

Bu nəticədən sonra xallarının sayını 25-ə çatdıran "Qəbələ" ikinci pilləyə yüksəlib. "Zirə" 22 xalla üçüncü sıradadır.

Dünya – idmanı





# Hemilton Ciddədə birinci oldu

"Mercedes" komandasının pilotu Lüis Hemilton Formula 1 üzrə Səudiyyə Ərəbistanı Qran-prisinin qalibi olub. Ciddə avtodromunda təşkil olunmuş 50 dövrəlik mübarizədə britaniyalı 7 qat dünya çempionu "Red Bull" sürücüsü Maks Ferstappendən üstün olub.

İlk üçlüyü "Mercedes"in digər üzvü Valtteri Bottas qapayıb. L.Hemilton liderlik uğrunda mübarizədə M.Ferstappenə hücum etdiyi vaxt niderlandlı pilot onu trasdan sıxışdırmağa çalışıb. Bundan sonra titullu idmançını rəqibi gözlənilmədən irəli buraxıb. Bu zaman Hemilton "Red Bull"un bolidini vurub və ona xəsarət yetirib. Bununla belə, britaniyalı sürücü niderlandlı pilotu keçməyi bacarıb.

Yarış toqquşmalar səbəbindən iki dəfə dayandırılıb.

Səudiyyə Ərəbistanı Qran-prisindən sonra xalını 369,5-ə çatdıran Hemilton Ferstappenlə xallarını bərabərləşdirib. Niderlandlı sürücü yalnız qələbə sayının daha çox olması səbəbindən birinci pillədə qalıb. Üçüncü yerdə isə 218 xalla V.Bottas yer alır.

Konstruktorlar Kubokunda "Mercedes" 587,5 xalla liderdir. 559,5 xala malik "Red Bull" ikinci, 307,5 xalı olan "Ferrari" üçüncüdür.

Qeyd edək ki, mövsümün son Qran-prisi dekabrın 12-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu-Dabidə olacaq.



# Olimpiya çempionu şəxsi məşqçisi tərəfindən döyüldü

Fransalı cüdoçu Marqo Pino xoşagəlməz hadisə ilə üzləşib. Bu barədə 27 yaşlı Olimpiya çempionu özünün sosial şəbəkə hesabında paylaşım edib. Tokio-2020 Yay Olimpiya Oyunlarının qalibi şəxsi məşqçisi Alen Şmidtin fiziki zorakılığına məruz qaldığını yazıb: "Dava mənim evimdə baş verdi. Şmidt əvvəlcə sifətimə



yumruqla zərbə endirərək, başımı yerə vurdu, ardınca isə boğmağa cəhd etdi. Məni öldürmək istəyirdi. Cüdo fəndləri ilə onun əlindən xilas oldum və dərhal qonşuları köməyə çağırdım".

Bundan sonra məşqçi həbs olunsa da, dəlil çatışmazlığı səbəbindən sərbəst buraxılıb.

Qeyd edək ki, Marqo Pino Tokio-2020-də qarışıq komanda yarışında qalib olub. O, həm də Avropa çempionu, Minsk-2019 II Avropa Oyunlarının qalibi və dünya üçüncüsüdür.

# Zlatanın İngiltərə xatirələri

"Hər kəs "Mançester Yunayted"i dünyanın ən zəngin və güclü klubu kimi tanıyır. Kənardan mənə də elə gəlirdi, ancaq orada özümü rahat hesab etmirdim".

Bu sözləri "Milan"ın isveçli hücumçusu Zlatan İbrahimoviç özü haqqında yazılan "Adrenalina" kitabında qeyd edib. "Bir matçdan əvvəl komanda ilə hoteldə idik. Susadığım üçün otaqdakı mini-barı açıb meyvə şirəsi içdim. Matçdan bir müddət sonra evə maaşın çeki gəldi. Adətən həmin kağıza baxmıram. Amma bu dəfə nədənsə maraqlı gəldi, baxdım. Gördüm ki, maaşımdan bir funt sterlinq kəsilib. Kluba zəng vurub səbəbini soruşdum. Mini-bardan götürdüyüm meyvə şirəsinə görə o pulun kəsildiyini dedilər. İtaliyada əsla belə şey ola bilməz. Bunlar futbolçuların hörmətini qazanan detallardır".




Qeyd edək ki, Zlatan İbrahimoviç 2016-2018-ci illərdə "Mançester Yunayted"in formasını geyinib.

# 77 otaqlı hotelin sahibi nə düşünür?

İspaniyanın Barselona şəhərinin rəhbərliyi Fransanın PSJ klubunun futbolçusu Lionel Messinin hotelinin sökülməsinə dair qərar qəbul edib. "El Confidencial" nəşrinin yaydığı məlumata görə, 77 otaqlı binanın sökülməsinə onun şəhər standartlarına uyğun olmaması səbəb göstərilib. Tikili "Barselona" klubuna məxsus "Kamp Nou" stadionunun yaxınlığındadır.

Argentinalı hücumçunun İbitsa və Malyorkada da hotelləri var. Onlar "Majestic Hotel Group" şəbəkəsinə daxildir. 34 yaşlı oyunçu Barselonadakı iqamətgahı 2017-ci ildə 30 milyon avroya alıb. "Barselona"nın keçmiş forvardı həmin binanı aldığı vaxt bilməyib ki, tikinti normalarına əməl edilmədən inşa olunduğu üçün şəhər rəhbərliyi onu sökmək istəyir.



# Atletika üzrə dünya çempionu qətlə yetirilib

1983-cü ildə Helsinkidə keçirilən dünya çempionatında 4x100 metr məsafəyə estafetdə atletika üzrə dünya çempionu, amerikalı sprinter Emmit Kinq doğma şəhəri Bessemerdə (Alabama) atışma zamanı həlak olub.



Yerli polisin məlumatına görə, 62 yaşlı Kinq tanışı Villi Albert Uellslə mübahisə edib. Münaqişəyə girən hər iki şəxs tapançalarını çıxararaq bir-birinə atəş açıb. Uells yerindəcə, Kinq isə aldığı yaralardan xəstəxanada dünyasını dəyişib.

olimpnews.az - sizin saytınız




Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19